**UOT: 791.43.**

**Maya Mustafazadə**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: mustafamaya82@gmail.com**

# MÜHARİBƏ VƏ KİNO

**Xülasə**: Məqalədə Qarabağ müharibəsi mövzusunda çəkilən filmlər qısa təhlil edilmiş, bu mövzunun Azərbaycan kinosunda hansı yeri tutduğu və önəmi araşdırılmışdır. Ümumilikdə, müharibə mövzusunda çəkilən filmlərimizə nəzər salınmış, İkinci dünya müharibəsi ilə, Qarabağ müharibəsi haqqında çəkilən filmlərin ortaq cəhətləri müqayisə edilmişdir.

**Açar sözlər**: müharibə, Qarabağ, kino, İkinci Dünya Müharibəsi, qələbə.

İyirminci əsrin ilk illərində Azərbaycan həm siyasi, həm iqtisadi cəhətdən yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycan Respublikası 1991-ci il 18 Oktyabrda müstəqillik qazandıqdan 2 il sonra Ermənistan silahlı qüvvələrinin işğalçı siyasətinə məruz qaldı. Qarabağ problemi Azərbaycan mədəniyyəti, xüsusən də kino sənəti üçün illərlə ən ağrılı, həssas mövzu mənbəyi oldu.

Bu dövrdə Qarabağ probleminin müxtəlif baxış bucaqlarından ekrana yansıdılan nümunələri çəkildi. Bu filmlərin arasında "Fəryad", "Haray" kimi düşmənə nifrəti artıran filmlər də oldu, "Sarı gəlin", "Hər şey yaxşılığa doğru" kimi pasifizm ideyalarını tamaşaçıya ötürənlər də. Bu filmlərdə müharibənin fonunda insan taleyi, şəxsi ləyaqət, şəxsiyyət problemləri ön plana çəkilmişdir.

Təbii ki, Azərbaycan kinosuna müharibə mövzusu Qarabağ problemi ilə birgə gəlməmişdir. Azərbaycan kinematoqrafiyasında İkinci Dünya Müharibəsindən bəhs edən yetərincə sənədli və bədii filmlər var. O dövrdə çəkilən sənədli filmlərdə də Azərbaycan xalqının öz döyüşçüsünə, vətəninə olan sevgisini görmək olar, məsələn "General Həzi Aslanov" sənədli filmi. Filmdə generalın dəfn mərasimi, xalqımızın bu igid sərkərdəyə olan dərin hörmət və məhəbbəti öz əksini tapmışdır. Aradan uzun zaman keçmiş, nəsillər dəyişmişdir, lakin xalqın öz qəhrəmanlarına olan ehtiram hissi dəyişməmişdir. Buna misal olaraq, 14 iyul 2020-ci ildə şəhid olan General Polad Həşimovun dəfn mərasimindən çəkilən kadrları göstərmək olar.

II Dünya Müharibəsi nə qədər fəlakətli, ağrı-acılı olsa da, Azərbaycan kinosuna istedadlı rejissor, operatorlar bəxş etmişdir. Onlardan biri də Tofiq Tağızadədir. O, müharibə başlandığı vaxtda Azərbaycan Neft və Kimya İnstitutundakı təhsilini yarımçıq qoyub, döyüşə yollanmışdır. Müharibədə yaralanıb ordudan tərxis olduqdan sonra isə ÜİDKİ-nin rejissorluq ixtisasına daxil olmuşdur.

Tofiq Tağızadənin diplom mövzusu da müharibədən idi. "Şopenin qayıtması" adlı bu qısametrajlı bədii film gənc rejissorun müharibə haqqında düşüncələrini ortaya qoymuşdur. Bu film bəlkə də onun müharibə mövzusunda yaradacağı Azərbaycan kinosunda xüsusi yeri olacaq filmlərin başlanğıcı hesab oluna bilər. Daha sonra Tofiq Tağızadə yaradıcılığının müxtəlif illərində müharibə mövzusuna toxunaraq "Uzaq sahillərdə", "Əmək və qızılgül", "Mən ki gözəl deyildim" filmlərini ərsəyə gətirir.

Onun 1958-ci ildə çəkdiyi "Uzaq sahillərdə" qəhrəmanlıq-macəra filmi nəinki Azərbaycanda diqqətləri çəkdi, həmçinin bütün sovet məkanına səs salmağı bacardı. Dillərə dastan olan qəhrəmanlığı ekranda görmək tamaşaçılara daha maraqlı gəlirdi. Bu film çəkildiyi gündən indiyə qədər gənc nəslə Mehdi Hüseynzadə kimi qəhrəmanın tanıdılmasında mühüm rol oynayır desək, yəqin ki, yanılmarıq. Bu film haqqında neçə-neçə tənqidçinin müsbət fikirləri, həmçinin görkəmli dramaturq Sabit Rəhmanın önəmli məqalələri işıq üzü görmüşdür.

Rejissorun qeydlərində bu film haqqında belə bir yazı qarşıma çıxdı: "Mehdi Hüseynzadə haqqında film çəkmək həm şərəfli, həm də çətin idi. Təkcə filmin qəhrəmanı bir neçə qiyafədə- fransız rəssamı, alman zabiti, sadə partizan və başqa qiyafələrdə çəkilməli idi. Biz bu mürəkkəb obrazı yarada biləcək aktyoru Nodar Şaşıqoğlunun şəxsində gördük. Yaradıcı kollektivimiz Mehdi Hüseynzadənin qəhrəmanlıqlarını xalqdan təcrid edilmiş şəkildə deyil, əksinə, onun bütün mübarizəsini kütlələrlə bağlı verməyə çalışmışdır." Tofiq Tağızadə bu filmi ilə parlaq qəhrəmanlıq örnəyini tamaşaçıya bütün təbiiliyi ilə çatdıra bilmişdir.

Bu dövrdə rejissorlarımız tərəfindən müharibəyə yanaşma fərqli və diqqət çəkən idi. Onlar döyüş meydanını yox, döyüş meydanından geridə qalan həyatı, taleləri ekrana yansıdırdılar. Bu filmlər həmin dövr həyat axarını görüb, öyrənmək üçün qiymətli materiallar hesab oluna bilər, məsələn "Şərikli çörək". Film müharibənin uşaq həyatına təsirindən bəhs edir. Filmdə Bakıya xas olan kolorit, əhval-ruhiyyə hiss olunur. Bu filmdə insanlarla bərabər çörək özü də bir obrazdır. İnsanlar bir parça çörəyi bəzən bölüşürlər, bəzən onun üçün dalaşırlar, küsüb

- barışırlar. Çörək yalnız qida, həyatda qalmaq vasitəsi deyil, həmçinin insanları dözülməz aclığa məhkum edən müharibənin rəmzidir. Necə ki, Birinci Qarabağ müharibəsindən bəhs edən "Dolu" filmindəki dolu müharibənin başlanğıcını, bir fəlakətin baş verdiyinin xəbərçisidir, "Şərikli çörək"də də çörək müharibənin gətirdiyi ağrının göstəricisidir.

Arxa cəbhədə baş verənləri, insan talelərini əks etdirən filmlərdən biri də "Bizim Cəbiş müəllim" olmuşdur. Bu filmdə nə cəbhə var, nə əlbəyaxa pafoslu döyüş səhnələri... Bəlkə də Həsən Seyidbəylinin də dahiliyi bunda idi, o, bir güllə belə atmadan müharibəni tamaşaçıya göstərə bilmişdir. Film bizə hansı vəziyyətdə olursa-olsun şərəflə pul qazanan adamları da göstərir, ən ağır zamanlar da belə şəraitdən istifadə edənləri də. Xoşbəxtlikdən belə vicdansız adamların sayı yaxşılardan azdır. Filmdə keçən dialoqların birindəki replikada deyildiyi kimi: "Yalnız cəbhədə deyil, arxada da fərari olur. Çətinliklərdən yaxasını çəkən, öz vəzifəsini yerinə yetirməyən adam harada olursa-olsun fəraridir". Filmin baş qəhrəmanı Cəbiş müəllim məhz belə fərarilərə qarşı qoyulan obrazdır.

1960-70-ci illərdən sonra müharibə mövzusunda çəkilən filmlərin sayı nisbətən azaldı, üstünlük daha çox tarixi filmlərə verilirdi. Lakin 1989-cu ildə Rasim Ocaqov "Ölsəm, bağışla" filmini çəkdi. Bu filmin mövzusu bilavasitə müharibədəndir. Film nə haqqındadır soruşsalar, "məhəbbət və ölüm" haqqında deyərdim... Amma bu ölüm bilavasitə cismin ölümü kimi qiymətləndirilməməlidir. Müharibədən qayıtmış, o dəhşətli mənzərələrin şahidi olan "canlı ölü" qəhrəmanımız Yusif sevdiyi qız olan Gülyanın başqası ilə ailə qurduğunu öyrəndikdə ikinci mənəvi çöküşünü yaşayır. 1989-cu ilədək çəkilən "arxa cəbhə" filmləri müharibənin törətdiyi itki, qıtlığı göstərirdisə, Rasim Ocaqov müharibənin müharibədən də dəhşətli olan "mənəvi öldürmə" bacarığını göstərdi.

1989-cu ildən sonra ölkədə baş verən siyasi dəyişikliklər kinoya daha çox mövzu verdi: müstəqilliyin elan olunması, əsaslı dəyişikliklərin baş verməsi və s. Lakin, müstəqilliyinə sevinən xalqın başını qara buludlar aldı və təkrar müharibə, ard-arda gələn itkilər, ehtiyac, övladlarını itirən analar, atalarını bir daha görməyəcək körpələr, torpaqlarından 27 illik ayrıldığını bilməyən bir milyon insan... Və bütün bunların nəticəsi olaraq ekrana gələn "Fəryad", "Haray", "Hər şey yaxşılığa doğru", "Sarı gəlin"... İyirminci əsrin sonları Azərbaycan kinematoqrafiyası bu dörd uğurlu filmi öz sırasına qatdı.

“Fəryad”... Hər adı çəkiləndə Xocalı, Şuşa, digər Qarabağ sakinlərinin fəryadı gəlir qulaqlara... Film 1993-cü ildə, xalqın ən həssas dönəmində çəkilmişdir. Lakin film çəkildiyi vaxtdan indiki dövrümüzə qədər tamaşaçını təsirində saxlamağı bacarmışdır. “Fəryad” müharibəni göstərmir. “Fəryad” insan taleyini, daha dəqiq desəm, xalqların taleyini göstərir. Çünki bu filmdə hər iki xalqın acısı, itkiləri yer alır. Bir yandan torpaqları düşmən tapdağına keçən xalq, digər tərəfdən bu torpaqların onda əbədiyyən qalmayacağını bilən düşmən... Bunu düşmənə əsir düşən İsmayılın tez-tez gördüyü yuxudan da aydın görürük. Erməni hərbçisi Xoren “Qarabağ - dərdim mənim!” qışqıraraq fəryad edir. Düşünürəm ki, düşmən xalqın nümayəndələri bu ifadəni artıq daha tez-tez işlətməli olacaqlar. Filmin qəhrəmanı fərd deyil, xalqdır. İsmayıl bütün xalqın özüdür. İsmayıl 1993-cü ildə Azərbaycan xalqının çəkdiyi çətinlikləri, sıxıntıları çəkir. İsmayıl ona görə xalqın özüdür ki, çəkdiyi heç bir əzab-əziyyət onu mənən sındırmır, o düşmənə diz çökmür, o qələbəyə ümidini itirmir! İsmayıl Azərbaycan xalqının mərdliyinin simvoludur – o, bir uşaq canına qıya bilmədiyi üçün evə od vurmur, çünki onun mübarizəsi körpə ilə deyil, bu isə özlüyündə İsmayılın ermənilərin üzərində qələbəsi idi.

“Sarı gəlin” və “Hər şey yaxşılığa doğru” filmləri “Fəryad”dan fərqli olaraq yerli izləyicidə bir o qədər də xoş təəsürratlar buraxdığını deyə bilmərik. Bu iki filmə olan ictimai rəy başa düşüləndir. Düşməni öz xalqının nümayəndəsi ilə eyni görmək istəməmək anlayışla qarşılanmalıdır. Filmlərin çəkildiyi illər nəzərə alınarsa, bu reaksiyalar daha başa düşülən olur. Lakin kinonu “milli sərhədlə” çərçivələmək də düzgün deyil. Xalq izləyici olaraq Zaza Uraşadzenin “Mandarinlər” filminə baxanda gürcü və çeçenin düşməndən bir-birilərinin uğrunda ölə biləcək dosta çevrildiklərinə necə xoş reaksiya verirsə, “Sarı gəlin” filminə də eyni reaksiya verilməlidir. Müharibə cəbhədə gedirdi, kinonun sərhədləndiyi mavi ekran isə cəbhə deyil.

Bu filmlər pasifist ruhda çəkilib, belə demək olarsa, yerli izləyicilər üçün deyil. Yavər Rzayev və Vaqif Mustafayevin bu filmləri xarici bazarlara uyğun çəkdiyi dərhal hiss olunur. Dünya kinosu təcrübəsində də belə filmlər az deyil. Lakin bu filmlər hər nə qədər tamaşaçı aqressiyasına məruz qalsalar da, rejissorlar əsərlərində fərdi fikirlərini ortaya qoymuşlar, bu isə Azərbaycan kino sənətinin 90-cı illərdəki ən böyük uğurudur. Hər bir halda, Vaqif Mustafayevin rejissoru olduğu “Hər şey yaxşılığa doğru” filmindəki ironiyalar, qara yumor özü belə

dərin faciənin xəbərçisidir və bu film aid olduğu janrın kinematoqrafiyamızda ən mükəmməl nümunəsidir.

Qarabağ mövzusu iyirmi birinci əsrdə də kinonun aparıcı mövzularından idi. “Yalan”, “Dolu”, “Nabat”, “Biz qayıdacayıq”, “Xoca”, “Yarımçıq xatirələr” və digərləri xalqın həssas mövzusunun iyirmi birinci əsrdəki davamçıları oldu. Bu filmlərin keçən əsrdəki xələflərindən ən başlıca fərqləri isə, onların daha çox qələbə ruhunda çəkilmələri idi. “Yalan” filminin baş qəhrəmanı Yavər film boyu oğlunu axtarır, onun nikbinliyi, ümid dolu axtarışı tamaşaçıda ataya rəğbəti artırır. Bu filmdə pafosdan daha çox dramatizm var. Ata oğlunun şəhadətindən xəbər tutsa da, bunu ailəsinə demir, həyat yoldaşı isə oğlunun toy xəyallarını qurur. Bu film çoxlarına gürcü filmi olan “Əsgər atası”nı xatırladır. Lakin, “Yalan” yerli tamaşaçıda daha dərin izlər buraxmağı bacarır. Çünki Yavər kişinin keçirdiyi iztirablar Xocalı faciəsi, Qarabağ müharibəsi görmüş yeni nəsil üçün daha təsirlidir, nəinki II Dünya Müharibəsi hadisələri. Bu film müharibə dövründə yarım qalmış gəncliyin, övladından doya bilməyən valideynlərin filmidir desəm, yanılmaram.

İyirmi birinci əsrdə çəkilən müharibə mövzulu daha nikbin havada ekrana yansıdıldığını yuxarıda qeyd etdim. Buna misal olaraq “Biz qayıdacayıq” filmini göstərmək olar. Filmin adındakı nikbinlik özü belə çox söz deyir – “Biz qayıdacayıq”. Bu ad tamaşaçıda əminlik, sabaha ümid yaradır və məhz bu inam bizi bu günki qələbəyədək gətirib çıxara bildi.

Biz qayıtdıq! Ümid edirəm, tezliklə ekranlarda bu filmin ikinci hissəsi olacaq, “Biz qayıtdıq!” filmini görə biləcəyik. Bu filmdə biz doğma torpaqlarından didərgin düşən insanların hansı çətinliklərdən keçdiyini görə bilirik. Gördükləri bütün dəhşətlərdən sonra hələ də qayıdacaqları günü gözləyən xalqın qarşında heç bir düşmən dayana bilməz, film bizə bu inamı ötürməyi bacarır.

Sadaladığım filmlərdə müharibənin arxa cəbhəsi daha qabarıq verilmişdir. Bu stereotip “Yarımçıq xatirələr”, “Dolu” filmlərində qırıldı. Bu mənada “Yarımçıq xatirələr” filmi daha əhəmiyyətlidir. Çünki bu filmə siyasi cəhətdən daha bir fiqur əlavə olunmuşdur. Filmdə ermənilər tərəfindən vuruşan rus zabiti var. Lakin bu zabitin Azərbaycana olan rəğbəti ortaya çıxır. “Yarımçıq xatirələr”i fərqləndirən digər cəhət də bu filmin paralel zamanları əhatələməsidir.

Qarabağ müharibəsi ilə bərabər İkinci Dünya müharibəsinə də zaman-zaman müraciət olunur. Bu iki müharibənin yanaşı əks olunması heç də təsadüfi

deyildi. İkinci dünya müharibəsində yan-yanaşı düşmənə qarşı vuruşanlar, Qarabağ müharibəsində üz-üzə vuruşur, rəqibdirlər. Bu ziddiyyətlər zamanın süzgəcindən keçib zamanla birgə dəyişən mühitin əksidir.

Və beləliklə, Azərbaycan kinosu artıq iyirmi birinci əsrin iyirmi ikinci ilindədir. Müharibə mövzusu hələ də kinomuzda var amma... Artıq bu mövzu sabaha ümidlə, qayıtmaq, qələbə qazanmaq arzusu ilə ekrana gətirilməyəcək. Biz artıq qalibik. Bir artıq qayıtdıq. Artıq "Fəryad" edib, "Haray" qoparmırıq. "Dolu" öz yerini günəşə verib, gün-gündən "Hər şey yaxşılığa doğru" gedir. Xatirələri yarımçıq qalan bir milyon insan həyatlarını 27 il öncə qoyduqları yerdən davam edəcək, "Son nəfəsədək" doğma yurdlarında qalacaqlar...

**Ədəbiyyat siyahısı:**

1. Aydın Kazımzadə - "Azərbaycan kinosu və müharibə" – Bakı, Qərənfil, 2005.
2. Aydın Kazımzadə- "Azərbaycan kinematorafçıları" – Bakı, Tərəqqi, 2010.

**Майя Мустафазаде**

**ВОЙНА И КИНО**

**Резюме**: В статье кратко анализируются фильмы, снятые на тему карабахской войны, исследуются роль и значение этой темы в азербайджанском кинематографе. В целом была учтена история военной темы в нашем кино, общность фильмов о Второй мировой войне и карабахской войне.

**Ключевые слова**: война, Карабах, кино, Вторая мировая война, победа.

**Maya Mustafazade**

**WAR AND CİNEMA**

**Summary**: The article briefly analyzes the films made on the Karabakh war, and examines the place and importance of this theme in Azerbaijani cinema. In general, the history of the war theme in our cinema, the commonalities of films about the Second World War and the Karabakh war were considered.

**Key words**: war, Karabakh, cinema, World War II, victory.

Məqalənin redaksiyaya daxil olma tarixi: 28. 12. 2021

**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 02. 01. 2022**

**Məqalənin çapa qəbul olunma tarixi: 04. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Əli Əmirli**